

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı


Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Qəzet 1921-ci ildən çıxır

Sayı: 18 (21.428)

29 yanvar 2016-cı il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 28-də İqtisadi Əməkdaşlıq Təşkilatının baş katibi Xəlil İbrahim Akçanı qəbul edib.

Dövlətimizin başçısı Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərlə çox yaxşı ikitərəfli əlaqələrinin, o cümlədən siyasi və iqtisadi əməkdaşlığının əhəmiyyətini vurğulayaraq ölkəmizin bu əməkdaşlığı daha da genişləndirmək niyyətində olduğunu deyib. Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatı ilə fəal əməkdaşlıq etdiyini bildirən Prezident İlham Əliyev təşkilatın iki sammitinin ölkəmizdə keçirilməsinin önəmini qeyd edib. Dövlətimizin başçısı dünyada iqtisadi çətinliklərin və böhranın hökm sürdüyü bir vaxtda təşkilatın üzv dövlətləri arasında iqtisadi əməkdaşlığın əhəmiyyətli olduğunu deyib. Prezident İlham Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının baş katibi Xəlil İbrahim Akçanın ölkəmizə səfərinin təşkilatın fəaliyyətinin gələcək planları ilə bağlı müzakirələrin aparılması üçün yaxşı imkan yaradacağına ümidvar olduğunu bildirib.

Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatının fəal üzvlərindən biri olduğunu vurğulayan baş katib Xəlil İbrahim Akça rəhbərlik etdiyi təşkilatın ölkəmizdə keçirilən sonuncu sammitini məmnunluqla xatırlayıb.

Görüşdə Azərbaycan ilə İqtisadi Əməkdaşlıq Təşkilatı arasında əməkdaşlığın perspektivlərinə dair məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı İdarə Heyətinin iclası olmuşdur





Yanvarın 28-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Sədri Vasif Talıbovun sədrliyi ilə Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının 2015-ci ildəki fəaliyyəti və qarşıda duran vəzifələrlə bağlı iclası keçirilmişdir.

Ali Məclisin Sədri iclası açaraq demişdir ki, 2015-ci il ölkəmiz, eləcə də Naxçıvan Muxtar Respublikası üçün uğurlu il olmuşdur. Yeni Azərbaycan Partiyası Azərbaycan Respublikası Milli Məclisinə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinə ötən il keçirilən seçkilərdə qələbə qazanmış, partiya üzvləri ölkəmizin inkişafında yaxından iştirak etmişlər. Siyasi partiyalar o zaman uzunömürlü olur ki, onun arxasında xalq, fəaliyyətində isə real iş dayansın. Sağlam qüvvələri öz ətrafında birləşdirən Yeni Azərbaycan Partiyasının təməlində də ümummilli liderimiz Heydər Əliyevin ideyaları və dövlətçilik konsepsiyası dayanır. Bu gün ulu öndərin yolu Yeni Azərbaycan Partiyasının rəhbəri, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, ardıcıl sosial islahatlar həyata keçirilir. Ölkəmizdə dövlət-xalq birliyi vardır. Sabitlik, inkişaf və cəmiyyətdə yaradılan sağlam mühit iqtidar partiyası kimi Yeni Azərbaycan Partiyasının fəaliyyətinin əsasını təşkil edir. Ulu öndər Heydər Əliyev də deyirdi ki, ***"Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır"***.

İclasda Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının icra katibi Anar İbrahimov hesabat məruzəsi ilə çıxış etmişdir. Qeyd olunmuşdur ki, ötən il Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının say tərkibində artım olmuşdur. Belə ki, 2015-ci il yanvarın 1-nə üzvlərin sayı 51 min 179 nəfər olmuşdursa, hazırda üzvlərin sayı 51 min 677 nəfərdir. Ötən ildə 1095 nəfər partiya sıralarına qəbul olunmuşdur ki, onların da 835-i, yaxud 76 faizi gənclərdir. Yeni qəbul olunanların 586 nəfərini, yaxud 54 faizini qadınlar təşkil edir. 2015-ci ildə Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı, şəhər və rayon partiya təşkilatlarının xətti ilə 110 müxtəlif tədbir keçirilmişdir. Ötən il 16 ərazi ilk partiya təşkilatı kənd mərkəzlərində müasir iş otaqları ilə təmin olunmuşdur. Anar İbrahimov göstərilən diqqət və qayğıya görə partiya üzvləri adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyinin sədri Azad Cabbarov və Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri Elman Cəfərli tədbirdə çıxış etmişlər.

İclasda muxtar respublika gənclərinin özəl bölmədə fəaliyyətə təşviq olunmasının əhəmiyyəti qeyd olunmuş və bu barədə Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının İdarə Heyətinin üzvlərinə tapşırıqlar verilmişdir.

İdarə Heyətinin iclasında tapşırıq və tövsiyələrini verən Ali Məclisin Sədri demişdir: Yeni Azərbaycan Partiyasının qurucusu, ümummilli lider Heydər Əliyevin 1993-cü ildə ali hakimiyyətə qayıdışından sonra partiyamız hakim partiyaya çevrilmişdir. Hakim partiya statusu arxayınçılıq yaratmamalı, məsuliyyətlə çalışmaq üçün stimul olmalıdır. 2016-cı ildə partiyanın şəhər və rayon təşkilatlarının hesabat konfransları keçiriləcəkdir. İcra Katibliyi partiyanın Nizamnaməsinə və muxtar respublika təşkilatının Əsasnaməsinə uyğun olaraq hesabat konfranslarını keçirməlidir. Şəhər və rayon təşkilatları yeni rəhbər strukturlarının – idarə heyəti, şura, qadınlar şurası, gənclər birliyinin formalaşdırılması zamanı nüfuzlu şəxslərin, fəal və əqidəli gənclərin seçilməsinə diqqət etməlidirlər. Konfranslaradək isə ilk partiya təşkilatlarının ərazi sistemi üzrə qurulması işi tam başa çatdırılmalıdır. Şəhər və rayonlarda partiya təşkilatları üçün binalar istifadəyə verilib. Həmçinin kənd mərkəzlərində də ilk partiya təşkilatları üçün nümunəvi iş otaqları yaradılıb. İlk təşkilatların yerləşdiyi yerlər, o cümlədən kənd mərkəzləri siyasi mərkəzlər kimi öz statuslarını möhkəmləndirməlidirlər.

Bildirilmişdir ki, qarşıdakı mərhələdə partiyanın şəhər, rayon və ərazi ilk təşkilatlarının fəaliyyətlərinin bir istiqamətini də ciddi nizam-intizam təşkil etməlidir. İcra Katibliyi şəhər və rayon təşkilatlarının fəaliyyətlərinin nəzarətdə saxlanılmasını və həmin təşkilatlara metodiki köməklik göstərilməsini davam etdirməlidir. Partiyanın ideoloji işi o vaxt irəli gedə bilər ki, bunu nəzəri biliklərə malik olan nümunəvi üzvlər aparsınlar. Buna görə özünü partiya işinə həsr edənlər daim mütaliə etməli, öyrənməli, nəzəri biliklərini artırmalıdırlar. Ümummilli lider Heydər Əliyevin nəzəri və siyasi irsi bu biliklərin əsasını təşkil etməlidir. Partiyanın yerli orqanları ilə dövlət hakimiyyəti orqanları arasında əlaqə hələ də istənilən səviyyədə deyil. Bu əlaqələr qarşıdakı dövrdə daha da gücləndirilməlidir.

"Partiya işi müasir dövrün sürətlə yeniləşən tələblərinə uyğun qurulmalı və inkişaf etdirilməlidir", – deyən Ali Məclisin Sədri qeyd etmişdir ki, partiyanın İcra Katibliyi və Heydər Əliyev adına Gənclər Birliyi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu ilə işini əlaqələndirməlidir. Biz partiyamızın üzvü olan fəal gənclərə partiyanın gələcəyi kimi baxmalıyıq. Partiyanın rayon və şəhər təşkilatları qadınlar şuraları ilə işin təşkilini də müasir tələblər səviyyəsində qurmalı, qadın üzvlərin və qadınlar şuralarının fəallığı təmin olunmalıdır. Partiyaya yeni qəbul edilmiş üzvlərlə sistemli iş davam etdirilməli, onlara üzvlük vəsiqələrinin təqdimat mərasimləri yaddaqalan olmalıdır. Partiyanın şəhər və rayon təşkilatları gənclərin partiya strukturlarında, xüsusilə partiya təşkilatlarının rəhbər qurumlarında təmsilçiliklərini artırmalıdırlar. Nüfuzlu və istedadlı gəncləri irəli çəkmək, onları partiya kadrı kimi yetişdirmək lazımdır. Bu məqsədlə partiyanın sosial-siyasi cəhətdən fəal gəncləri haqqında məlumat-informasiya bazası yaradılmalıdır.

Ali Məclisin Sədri demişdir: 2016-cı ildə Azərbaycan Respublikasının Dövlət Müstəqilliyinin 25-ci ildönümü tamam olacaqdır. Bununla bağlı partiyanın şəhər və rayon təşkilatları tədbirlər keçirməlidirlər. Yeni Azərbaycan Partiyasının Naxçıvan Muxtar Respublika Təşkilatının fəaliyyəti partiyamızın ilk və fəal siyasi qurumu kimi daim nümunə olmalı, "Nizam-intizamın daha da möhkəmləndirilməsi ili" olan 2016-cı ildə fəaliyyətini daha da gücləndirməlidir. Cari ildə də siyasi, ideoloji və təşkilati fəaliyyətimiz davam və inkişaf etdirilməlidir. Yeni Azərbaycan Partiyasının rəhbəri, ölkə Prezidenti cənab İlham Əliyevin Yeni Azərbaycan Partiyasının beşinci qurultayında dediyi kimi: ***"...Azərbaycan inamla, uğurla irəliyə gedəcəkdir. Bunu təmin etmək üçün Azərbaycanda Heydər Əliyev siyasəti bundan sonra da daim üstünlük təşkil etməlidir".***

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

***Bütün dövrlərdə inkişafın, yüksəlişin, uğurların başlıca səbəbi və aparıcı qüvvəsi hesab olunan nizam-intizam ölkədə, cəmiyyətdə, iş yerimizdə qaydalara, qanunlara şüurlu şəkildə əməl olunmasının vacibliyini ön plana çəkir. Nizam-intizam yüksək tələbkarlığın, prinsipiallığın, yorulmaz fəaliyyətin, əqidə bütövlüyünün, dərin sədaqətin və nəhayət, vətənpərvərliyin tamamlayıcı amili kimi daim diqqəti cəlb edir, rəğbət yaradır. Nizam-intizamın olmadığı diyarlarda, ölkələrdə xaos, anarxiya, özbaşınalıq kimi arzuolunmaz dağıdıcı meyillər yaranır, faciələrə yol açan hadisələr baş verir. Yəni nizam-intizam inkişafla yanaşı, həm də davamlı sabitliyin, əmin-amanlığın açarıdır. Məlumdur ki, sabitliyin olmadığı yerdə nailiyyətlərdən söhbət belə gedə bilməz.***

# Nizam-intizam inkişafın, yüksəlişin, yeni-yeni uğurların başlıca səbəbi, aparıcı qüvvəsidir



Bu gün inkişaf etdirilmiş, əsaslı şəkildə yenidən qurulmuş, düşmən sərhədində alınmaz qalaya çevrilmiş Naxçıvan Muxtar Respublikası da məhz güclü nizam-intizamın nəticəsində bu səviyyəyə yüksəlib. Vaxtında görülmüş işlər, həyata keçirilmiş tədbirlər nəticəsində özünün şaxələndirilmiş hərtərəfli inkişaf epoxasını yaşayan Naxçıvanın beşminillik şəhər tarixində ilk dəfədir ki, onun hətta ən ucqar dağ kəndləri də müasir şəhər görkəmi alıb, abadlaşıb, gözəl yaşayış məskəninə çevrilib. Muxtar respublikanın bütün şəhərlərində inşa edilən və ya əsaslı təmir olunan binalarda Şərq və Qərb üslubunun üzvi sintezi milli memarlıq ənənələrinin yeni çalarlarla zənginləşdirilməsinə şərait yaradıb.

Bu gün qədim Naxçıvanın zəminində yeni bir şəhər – müasir Naxçıvan ucaldılıb. Müasir Naxçıvan bu gün yenitipli Avrasiya şəhəri kimi diqqətləri üzərinə cəlb edir. Eyni prinsiplər Naxçıvan Muxtar Respublikasının rayon mərkəzlərində – Şərurda, Babəkdə, Culfada, Ordubadda, Şahbuzda, Kıraqda və Sədərəkdə aparılan quruculuq proseslərində də özünü qabarıq şəkildə büruzə verir. Bu isə regionda şəhərsalmada və memarlıqda aparılan uğurlu dövlət siyasətinin nəticəsi, ciddi nizam-intizamdan bəhrələnən inkişaf və yeniləşmə istiqamətində keçilmiş şərəfli yolun nümunəsidir.

Burada bir məqama da diqqət çəkmək istərdim. 20 ildir, iqtisadi və nəqliyyat əlaqələrinin məhdud olduğu şəraitdə yüksək iqtisadi fəallığa nail olunmasını, istehsal potensialının hərəkətə gətirilməsini, davamlı quruculuq işlərini, sosial problemlərin səmərəli həllini və ən əsası əhalinin güzəranının yaxşılaşdırılmasını, demək olar ki, hər bir naxçıvanlının qayğısını çəkmək bacarığını yalnız sadə formada tərəqqi və inkişaf yolu adlandırmaq doğru olmazdı. Bu yol Vətən və dövlət sevgisindən doğan, gərgin əmək və misilsiz əzmkarlığın təcəssümü, ciddi nizam-intizam nümunəsi olan əsl qəhrəmanlıq salnaməsi kimi yaddaşlara həkk olunub.

Diqqət yetirsək bir daha görərik ki, müstəqilliyimizin ilk illərində məqsədyönlü fəaliyyət nəticəsində, ilk növbədə, muxtar respublikamızın hərtərəfli tərəqqisində mühüm amil olan ictimai-siyasi sabitlik qorunub saxlanılıb, nizam-intizamın tam bərpa olunması üçün ardıcıl tədbirlər həyata keçirilib. Bütün iqtisadi fəaliyyət sahələrində sürətli inkişafa rəvac verən səmərəli iqtisadi siyasətlə yanaşı, nizam-intizam da muxtar respublikamızda tarazlı və davamlı inkişaf üçün başlıca amil olub, şəhər və rayonlarımızda canlanma yaranıb, iş adamlarının normal fəaliyyəti üçün əlverişli biznes mühiti formalaşdırılıb, yeni təsərrüfat subyektlərinin fəaliyyəti sayəsində əhalinin məşğulluğu təmin olunub.

Muxtar respublikanın mərkəzində olduğu kimi, rayonlarımızda, hətta ən ucqar kəndlərdə belə, nəqliyyat-kommunikasiya sisteminin bərpası, elektrik enerjisi, rabitə, qaz, su təminatı kimi sosial məsələlərin həlli, müasir informasiya texnologiyalarının tətbiqi sosial-iqtisadi və mədəni-intellektual yüksəlişə əsaslı zəmin yaradıb. Bütün bunlar daim nizam-intizama riayət edən insanların gərgin əməyi nəticəsində mümkün olub.

Nizam-intizam bu gün muxtar respublikamızda formalaşmış müasir cəmiyyətimizin köklü ictimai sifarişi ilə həmahəng olan zamanın diktəsidir. Qədirbilən naxçıvanlılar əmindirlər ki, sürətli inkişaf tempini, sabitliyi, əmin-amanlığı qoruyub saxlamaq üçün hər bir sahədə daim nizam-intizamın olması, daha doğrusu, daha da möhkəmləndirilməsi vacibdir. Bu, ulu öndər Heydər Əliyevin yoludur. Bu yol isə müqəddəsdir. Çünki böyük mütəfəkkirlərin, sərkərdələrin, dahilərin vətəni olan Naxçıvanın yetişdirdiyi şəxsiyyətlərin fövqündə dayanan əvəzolunmaz lider bütün həyatı boyunca Vətəninə, xalqına bağlılıq nümunəsi göstərib, ölkəmizin, o cümlədən doğulub boya-başa çatdığı Naxçıvanın inkişafı, yüksəlişi, təhlükəsizliyinin təmini üçün əlindən gələni əsirgəməyib. Qədim diyarımızda da məhz bu yol davam etdirilir. O yol ki bizim inkişafımızda, tərəqqimizdə, müasir dövlət idarəetmə sisteminin daha da təkmilləşdirilməsində daim mayak rolunu oynayır. Nadir siyasi və dövlət xadimi ümummilli liderimizin həyat və mübarizə məktəbinin yetirmələri də Onun yolunu, siyasi xəttini uğurla davam etdirirlər.

Naxçıvana gələn bütün həmkarlarımdan eşitdiyim bu sözlər muxtar respublikamızın inkişafının səbəblərindən birini belə ifadə edir: “Təyyarədən Naxçıvana enəndə elə ilk anlardan hiss edirsən ki, muxtar respublikada ciddi nizam-intizam mövcuddur. Hər kəs öz işini lazımi səviyyədə, qaydalara, qanunlara uyğun görməyə çalışır. Heyranedici bu mənzərəni Naxçıvan Beynəlxalq Hava Limanının möhtəşəm binası, yüksək səviyyədə yaradılmış yol infrastrukturu, gözəlliyə qərq olmuş Naxçıvan şəhəri və muxtar respublikanın şəhərləşən, müasirləşən kəndləri tamamlayır. Burada vaxt insanın yox, insan vaxtın hakimidir”.

Göründüyü kimi, muxtar respublikamız müstəqillik illərində əsrlərə bərabər inkişaf dövrü keçib. Həm də nizam-intizamdan yaranan inkişaf və yeniləşmə istiqamətində keçilmiş yolun dərsləri, dövlətçilik, quruculuq, idarəetmə sahəsində toplanmış zəngin təcrübə yeni-yeni uğurlara yol açır. Ölkə Prezidenti İlham Əliyevin dediyi kimi: ***“...Bu gün Naxçıvanın gələcək inkişafı ilə bağlı əlavə sözlərə ehtiyac yoxdur. Çünki bütün işlər burada ən yüksək səviyyədə görülübdür. Bir daha qeyd etmək istəyirəm ki, siz bütün məsələləri – quruculuq, abadlıq işlərini, enerji təhlükəsizliyi, hərbi potensial, infrastruktur layihələrinin icrası, ərzaq təhlükəsizliyi məsələlərini həll etmisiniz. Bundan sonra ancaq bu uğurlara yeni uğurlar əlavə etmək lazımdır”.***

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov öz çıxışlarında dəfələrlə vurğulamışdır ki, dövlətimizin ən qiymətli incisi onun vətəndaşlarıdır. Naxçıvanda görülən bu işlərin əsas məqsədi də məhz muxtar respublika sakinlərinin rahat yaşayışının, təhlükəsizliyinin təmin olunması, rifah halının daha da yüksəldilməsi, inkişafın davamlılığının təmin olunmasıdır. 2016-cı ilin muxtar respublikamızda “Nizam-intizamın daha da möhkəmləndirilməsi ili” elan olunması bu baxımdan əhəmiyyətlidir. Çünki nizam-intizam olmadan heç bir nailiyyətə, uğura nail olmaq mümkün deyil.*

**Rauf ƏLİYEV**

# Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2015-ci il 30 dekabr tarixli qərarı ilə “2016-cı ildə Novruz, Ramazan, Qurban bayramları haqqında” qərarı təsdiq edilmişdir. Qərara əsasən, 2016-cı ildə 20, 21, 22, 23, 24 mart Novruz bayramı, 6, 7 iyul Ramazan bayramı, 12, 13 sentyabr isə Qurban bayramıdır. Qanunvericiliyə uyğun olaraq, həmin günlər iş günü hesab edilmir.

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetində 2016-cı ilin yanvar ayında da bir sıra normativ-hüquqi aktlar qəbul edilmişdir.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2016-cı il 11 yanvar tarixli qərarı ilə “Naxçıvan Muxtar Respublikasında bəzi fəaliyyət növlərinə lisenziya verən icra hakimiyyəti orqanlarının siyahısı” təsdiq edilmişdir. Həmin qərarla da “Naxçıvan Muxtar Respublikasında bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verən icra hakimiyyəti orqanlarının siyahısının təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2010-cu il 12 oktyabr tarixli qərarı ləğv edilmişdir.

2016-cı il 18 yanvar tarixli qərarla isə “Naxçıvan Muxtar Respublikasının Dövlət Toxum Fondu”na toxumun tədarükü, saxlanması və istifadəsi qaydaları təsdiq edilmişdir.

Bu Qaydalar “Naxçıvan Muxtar Respublikasının Dövlət Toxum Fondu”na kənd təsərrüfatı bitkilərinin toxumlarının tədarükü, saxlanması və istifadəsi ilə bağlı məsələləri tənzimləyir.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2016-cı il 26 yanvar tarixli qərarı ilə “Naxçıvan Muxtar Respublikasında süni mayalanma yolu ilə alınmış hər buzova görə subsidiyanın verilməsi Qaydası” təsdiq edilmişdir.

Bu Qayda yüksək məhsuldar genetik potensialı olan heyvanların baş sayının artırılması və bu sahəyə marağın gücləndirilməsi üçün süni mayalanma yolu ilə alınmış hər baş buzova görə heyvan sahiblərinə dövlət büdcəsinin vəsaiti hesabına subsidiyanın verilməsi prosedurlarını müəyyən edir.

Qəbul edilən normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikası Hüquqi Aktların Dövlət Reyestrində ***(www.huquqiaktlar.nakhchivan.az)*** tanış olmaq mümkündür.

# Ötən il muxtar respublikada 47 istehsal və xidmət sahəsi yaradılıb

***Son illər Naxçıvan Muxtar Respublikasında yaradılan əlverişli biznes mühitindən bəhrələnərək daxili bazarın tələbatına uyğun yüksəkkeyfiyyətli məhsullar istehsal edən emal və sənaye müəssisələrinin sayı artmaqdadır. 2015-ci il ərzində Sahibkarlığa Kömək Fondunun kredit vəsaiti və digər mənbələr hesabına sənaye və kənd təsərrüfatı yönümlü 41 istehsal və 6 xidmət sahəsi olmaqla, ümumilikdə, 47 müəssisənin yaradılması istiqamətində işlər başa çatdırılıb.***

Yeni yaradılmış istehsal müəssisələri tərəfindən silikon yorğan-döşək və yataq dəsti, alçıpan örtüklər, gips, əhəng, məsaməli beton məmulatları, süd məhsulları, unlu-qənnadı məmulatları, çörək, yarma istehsalı həyata keçirilir. Ötən il istifadəyə verilən yeni istehsal sahələri sırasında istixana, çiyələkyetişdirmə, heyvandarlıq və balıqçılıq təsərrüfatları da vardır.

Yeni istehsal sahələrinin yaradılması daxili bazarı yüksəkkeyfiyyətli yerli məhsullarla təmin etməklə bərabər, əhalinin məşğulluğunda da mühüm rol oynayır. Belə ki, 45 istehsal və xidmət sahəsində 344 yeni iş yeri açılıb.

Sahibkarlığa Kömək Fondunun krediti və digər mənbələr hesabına kompot, mürəbbə, turşu, bərk pendir, qarışıq qüvvəli yem istehsalının, toxumçuluq, heyvandarlıq, quşçuluq, zinət əşyaları, medal və döş nişanları, elektrik açarları və müxtəlif növ xidmət sahələri olmaqla, 9 müxtəlif təyinatlı istehsal müəssisəsi, 5 müxtəlif növ xidmət sahəsi, ümumilikdə, 14 müəssisənin yaradılması istiqamətində işlər davam etdirilməkdədir.

2015-ci il ərzində Naxçıvan Muxtar Respublikası Sahibkarlığa Kömək Fondu tərəfindən 25 müxtəlif təyinatlı layihənin maliyyələşdirilməsinə güzəştli şərtlərlə 11 milyon 289 min 200 manat maliyyə dəstəyi göstərilib.

Qeyd edək ki, müxtəlif sahələr üzrə yeni istehsal müəssisələrinin yaradılması daxili bazarda yerli istehsalın çəkisini xeyli artırıb. Bunun nəticəsidir ki, hazırda muxtar respublikada fəaliyyəti bərpa edilmiş və ya yenidən qurulmuş istehsal müəssisələrində 119 növdə, 513 çeşiddə ərzaq, 242 növdə, 603 çeşiddə qeyri-ərzaq olmaqla, cəmi 361 növdə, 1116 çeşiddə məhsul istehsal olunur. İstehsal olunan 107 növdə ərzaq, 236 növdə qeyri-ərzaq olmaqla, 343 növdə məhsula olan tələbat tamamilə yerli istehsal hesabına ödənilir. Bu, idxaldan asılılığın ciddi şəkildə azaldılmasına, əhalinin tələbatının keyfiyyətli məhsullarla ödənilməsinə şərait yaradıb.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

# Smartkarttipli sayğacların quraşdırılması sürətlə davam etdirilir

***Muxtar respublika sakinlərinin yaşayış səviyyəsinin yüksəldilməsi məqsədilə həyata keçirilən tədbirlər davamlı xarakter alıb. Bu sırada əhalinin etibarlı elektrik enerjisi və mavi yanacaqla təmin olunması xüsusi qeyd edilməlidir.***

Həyata keçirilən məqsədyönlü tədbirlər hesabına bir neçə ildir ki, bu məsələ öz həllini yüksək səviyyədə tapıb. Bu məqsədlə həyata keçirilən tədbirlər cari ildə də davam etdirilir. Naxçıvan şəhərində smartkarttipli elektrik və qaz sayğaclarının quraşdırılmasına başlanılması naxçıvanlılar tərəfindən onlara göstərilən daha bir qayğı kimi dəyərləndirilir. Qeyd edək ki, bu sayğacların əsas xüsusiyyəti abonentlərin elektrik enerjisi və təbii qazla təminatını öncədən ödəniş etməklə həyata keçirməkdən ibarətdir. Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyindən aldığımız məlumata görə, ötən ilin iyul ayından ilkin olaraq Naxçıvan şəhərinin Heydər Əliyev prospektində, Əziz Əliyev, “Təbriz”, Atatürk, “İstiqlal” küçələrində, “Çənlibel”, “Qoçüstü” məhəllələrində, Əliabad qəsəbəsində və digər ünvanlarda yerləşən təmir edilmiş ictimai yaşayış binaları yeni sayğaclarla təchiz olunub. Bu günədək 9300 sayğac quraşdırılıb.

Əhali qrupu üzrə təbii qaz istehlakçılarının mavi yanacaqdan müasir standartlara cavab verən texnologiyalar vasitəsilə istifadəsi məqsədilə Naxçıvan şəhərində ön ödənişli smartkarttipli qaz sayğaclarının quraşdırılması da davam etdirilir. “Naxçıvanqaz” İstehsalat Birliyindən aldığımız məlumata görə, bu günədək Naxçıvan şəhərində 8002 ədəd sayğac quraşdırılıb. Sayğacların kənar müdaxilələrdən mühafizəsi üçün qutular alınıb. Sayğacların hər biri Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində qeydiyyatdan keçirilib.

**Muxtar MƏMMƏDOV**

Nəxçıvanın tarixi yaddaşı

## Əlincəqalanın adı Əlincək tayfasının adı ilə bağlıdır

***Çox qədim zamanlardan insanlar məskən saldıqları ayrı-ayrı obyektlərə – dağlara, qalalara, çaylara, göllərə, kənd və şəhərlərə və başqa bu kimi yerlərə müxtəlif adlar vermişlər. Dünyada elə bir coğrafi obyekt növü yoxdur ki, insanlar onu hansısa adla adlandırmamış olsun. Hər bir yerin müəyyən adı, hər bir adın özünəməxsus mənası, yaranma tarixi vardır.***

Tarixən yaranmış adların mənşəyi və mənası məsələsinə gəldikdə isə qeyd etmək lazımdır ki, ictimai-iqtisadi formasiyaların bir-birini əvəz etməsi, adların dildən-dilə, nəsildən-nəslə keçməsi ilə əlaqədar onların bir qismi təhrifə uğramış və nəticədə, müxtəlif cür izah edilmişdir. Belə coğrafi adlardan biri də "Kitabi-Dədə Qorqud" dastanlarında da adı çəkilən Əlincəqala (Alınca qalası) adıdır.

Tədqiqatçılar "Əlincə" sözünü müxtəlif cür izah etmişlər. Qalanın adı orta əsr yazılı məxəzlərində Əlincə, Əlincəm, Alənca, Alançuq, Alanca, Alançik, Yerənçaq və sair şəkillərdə işlədilmişdir. Bir sıra qaynaqlarda Əlincəqalaya Erınca şəklində rast gəlirik. Bəzi tarixçilərin yazdığına görə, guya Əlincəqala öz adını zəngin xəzinəsini gizlətmək məqsədilə həmin qalanı tikdirmiş "Erincak" adlı bir feodal qadının adından götürmüşdür.

Mənbələrdə "alan" sözünün "aran" şəkli V-VII əsrlərdə işlədilmişdir. Çünki artıq orta əsr ərəb və başqa mənbələrdə xüsusi yer adı olaraq "Aran", "Arran" və "Alran" sözlərinə təsadüf edilir. XIII əsrdə yaşamış məşhur ərəb tarixçisi Yaqut əl-Həməvi "Mücəm əl-büldan" əsərində doğru olaraq "Arran" sözünün ərəb sözü olmayıb, yerli məna daşıdığını qeyd edir. Çox güman ki, bu söz türk dillərindən götürülmüşdür. Qalaya belə bir adın verilməsi heç də təsadüfi deyildir. Çünki "alan" qədim türk dilində "düzənlik", "meydan" mənasını verir. Şübhəsiz ki, bu, qalanın yuxarı hissəsinin düz bir sahədən ibarət olması ilə bağlı olmuşdur. Bununla belə, "aran", "alan" sözünün "Əlincə"yə çevrilməsi həqiqətə uyğun deyil.

"Əlincəqala" adının izahı "Azərbaycan toponimlərinin ensiklopedik lüğəti"ndə bir neçə variantda verilir: "...VII əsrə aid mənbələrdə qalanın adı Erincak, XIII əsrə aid mənbələrdə isə Alınca variantlarında çəkilir... Bəzi tədqiqatçılar dağın adının monqolların yürüşündə iştirak etmiş Elcihin tayfasının adı ilə bağlı olduğunu yazırlar. Bir qrup alimlərin fikrinə görə, toponim türk dillərindəki alançik (meydança, düz) sözündəndir. Oronimi Alan tayfa adı ilə bağlayırlar".

Göründüyü kimi, hətta toponimiyaya həsr olunmuş lüğətdə belə, "Əlincə" sözünün etimologiyası haqqında dəqiq fikir söylənilmir.

"Əlincə" adının Alan tayfasının adı ilə nə dərəcədə bağlı olmasına diqqət yetirək. "Azərbaycan tarixi"nin akademik nəşrinin I cildində Alan tayfalarının eramızın 72-ci ilində Dəryal keçidi vasitəsilə Cənubi Qafqaz, o cümlədən Qafqaz Albaniyası istiqamətində yürüş etməsi fikri müdafiə olunmuşdur. İosif Flaviyə görə alanlar Skif tayfalarındandır. Bir sıra antik müəlliflərin, eləcə də İ.Flavinin məlumatları alanların Şimali Qafqaz keçidləri vasitəsilə baş verməsi haqqında irəli sürülən elmi fikri təsdiq etmir. Bəzi tədqiqatçılara görə, Əlincə toponimi qədim türk mənşəli alan (meydan, düz) coğrafi termini ilə əlaqədardır (-cıq kiçiltmə şəkilçisidir). Göründüyü kimi, "alan" sözü iki mənada işlədilmiş, lakin heç biri elmi cəhətdən təsdiqini tapmamışdır.

Bəzi orta əsr mənbələrində Əlincəqaladan "Yerönçək" (Erincak) kimi bəhs edilsə də, ehtimal edilir ki, Yerönçək Əlincəqala ilə bağlı ad deyildir, hələ qalanın bu ərazidə inşa olunmasından daha əvvəl bu əraziyə verilən addır. Naxçıvan qalalarından bəhs edən professor M.Seyidov qalanın ilkin adının Erıncaq olduğunu yazmışdır. Erıncaq iki tərkibdən yaranmış mürəkkəb söz – addır. Eriq (erıq) əksər türk dillərində çoxmənalı sözdür. Onun möhkəm, qüvvətli, hakimiyyət mənaları vardır. "Caq" isə Azərbaycan dilində "yer", "məkan" bildirən şəkilçidir. Beləliklə, Erıncaq (erincək) möhkəm, qüvvətli dövləti, hakimiyyəti olan yer deməkdir.

Xalq etimologiyasına görə, "Əlincə" adının izahı "əlini çək", bəzi tədqiqatçılara görə, "Alancik" (boş sahə) mənasını verir.

Yaxın Şərq coğrafiyasının tanınmış tədqiqatçılarından K.Streyc qalanın əsl adının Alancik olduğunu qeyd edir. Tədqiqatçıların bəzilərinin fikrincə, qalanın adının bu şəkildə işlədilməsi həqiqətə daha uyğundur. Qala öz adını qədim Azərbaycan sözü olan alan kəlməsindən götürmüşdür. Bu söz qədim türk dillərində "düzənlik", "meydan" mənasını verir. Azərbaycan Ensiklopediyasında da qalanın adı Alanciklə bağlı izah edilir. Mahmud Kaşqarlının XI əsrə aid "Divani lüğət-it-türk" kitabında "alan" (yaxud alanq) sözü "düz", "açıq yer" kimi şərh olunur. M.Köprülü "alancuk" sözünün sələf türklərinə aid olub, "kiçik meydan" demək olduğunu göstərir. Lakin qeyd etməliyik ki, "alan" təkcə səlcuqlara məxsus olmayıb, bir sıra türk tayfalarının dilində, o cümlədən Azərbaycan dilində də işlədilmişdir. Lakin müasir Azərbaycan dilində düzənlik mənasında "alan" deyil, "aran" işlədilir. "l" hərfinin "r" hərfinə çevrilməsi türk dilləri qrupu üçün xas olduğundan "alan"ın "aran"a çevrilməsi təbiidir.

Müasir türk ədəbiyyatında qalanın adı "Alınca" şəklində yazılır. Qeyd etmək lazımdır ki, Azərbaycan ərazisində orta əsrlər dövründə "Əlincə" adlı başqa qalalar da mövcud olmuşdur. Həmdullah Qəzvini "Nüzhət əl-qülub" əsərində Təbrizin yaxınlığında "Əlincə" adlı qala olduğunu göstərir.

XX əsrin əvvəllərində Naxçıvanın tarixi ilə bağlı tədqiqatlar aparmış K.N.Smirnov isə "Əlincə" sözünün bəzi tədqiqatçıların fikrincə, "əyləncə" sözündən yarandığını yazmışdır. Sovet-rus tədqiqatçısı bunu qalanın ibadətlə əylənceni birləşdirən və Səlcuqlar dövründə İran və Azərbaycanın bir sıra ərazilərində yayılmış olan bidətçi ismaili təriqətinin ritualları ilə əlaqələndirmişdir.

Akademik A.Axundovun fikrincə, Əlincəqalanın adı monqolların yürüşündə iştirak edən, əslən türk tayfaları olan əlcihinlərlə (elcihin deyənlər də var) bağlıdır. Əlincə toponiminin metateza (səslərin yer dəyişimi) və eliziya (səs düşümü) fonetik hadisələri nəticəsində əlcihin (elcihin) etnonimindən törənməsi tamamilə mümkündür. Tədqiqatçı N.Məmmədov da "Əlincə" dağ adının eramızın ilk əsrlərindən mövcud olmasını qeyd etməklə, "Əlincə" adının türk tayfalarından olan Əlciin (Əlcihin) tayfasının bu ərazidə məskunlaşması nəticəsində yaranması qənaətinə gəlir. Mümkün olmasını qəbul etmək olsa da belə, tarixi-siyasi xronologiyanı əsas götürsək, bu, inanılası görünmür. Monqolların Azərbaycana, eləcə də Naxçıvana yürüşü XIII əsrdə olmuşdur, bu zaman "Əlincə" adlı qala mövcud idi və belə də adlanırdı. İlhami Cəfərsoylu Əlincənin monqollarla əlaqəsindən bəhs edərkən göstərir ki, "Əlincək boyunun bəzi qolları monqollara qoşulmuş, Hülakülər dövlətində müəyyən vəzifələr tutmuşlar. Onlardan biri Alıncak noyon idi. Fəzlullah Rəşidəddinin yazdığına görə, həmin boydan Əmir Novruz Alıncak adlı bir əmir çıxıb".

Azərbaycanın Əlincək boyu tanınmış qoşun başçıları ilə yanaşı, istedadlı alim və şairlər də yetirib. Əlişir Nəvai öz dövrünün tanınmış alim və şairlərindən bəhs edərkən Mövlana Xəlaf Təbrizi Şeyx Əlencək haqqında məlumat verir.

AMEA-nın müxbir üzvü Adil Bağırov "Əlincə" adını Nuh Peyğəmbərin nəticəsi Alınca xanın adı ilə əlaqələndirmiş və qeyd etmişdir ki, bu söz canlı danışıq dilində tədricən "Əlincə" şəklinə düşmüşdür. "Oğuz dastanı"nda da Alınca xan Nuhun yeddinci oğlu kimi təqdim edilir. O, Yafəsin və Türkün nəslindəndir. Əbülqazi Bahadur xanın qələmə aldığı "Türklərin soy ağacı"nda – "Şəcəreyi-Türk"də iki dəfə onun adı çəkilir.

Xalqımızın həyatını, məişətini, adət-ənənələrini, yüzlərlə yer adlarını özündə əks etdirən, ən qədim yazılı abidəmiz olan "Kitabi-Dədə Qorqud" dastanlarında "Əlincə" adı çəkilir. Dastandakı "Uşun qoca oğlu Səgrək boyu"nda Əgrəyin Əlincəqalada əsir düşməsi və qardaşı Səgrəyin onu xilas etməsi göstərilir. Əlincə "Dədə Qorqud"da qala kimi xatırlanır. Naxçıvanda "Əlincə" sözü Əlincəqalada, Əlincə çayında və kənd adında ifadə olunur.

"Naxçıvan sancağının müfəssəl dəftəri"ndə Əlincə nahiyə və qala kimi qeyd edilir və buranın sakinlərinin azərbaycanlılar olduğu göstərilir.

Bir sıra tədqiqatçılar Əlincə toponiminin yayılma arealının çox geniş olduğunu qeyd etmişlər. Əlincə (Ərincə) adlı yaşayış yerləri Göyçə, Ərzurum, Təbriz, Ağbaba elində, mesxeti türklərinin vətəni olan Axısqa şəhəri yaxınlığında da olmuşdur.

Ümumiyyətlə, Azərbaycan dilçiliyində Əlincəqalanın adı, sadəcə, yer adı kimi izah edilmişdir. Əslində, o, türk boylarından birinin adı olmuş, Azərbaycanın bir çox yer adlarında əks olunmuşdur. Məlumdur ki, yer adlarının böyük əksəriyyəti həmin ərazidə yaşayan tayfa və qəbilələr, boylar tərəfindən verilmişdir. Çox güman ki, bu toponimlər (yəni Əlincə//Ərincə ilə bağlı olanlar) öz mənşəyini "Ərincə" adlı tayfanın adından almışdır. Yuxarıda da qeyd etdiyimiz kimi, Mahmud Kaşqarlının əsərində də erincə-ərincə formasında leksik vahid xatırlanır.

Ərincə//Əlincə adı qədim mənbələrdə Alıncak, Alancıq, sonrakı yazılarda isə Əlincək və Əlincə kimi göstərilmişdir. Həmdullah Qəzvini onun adını Alancik kimi ifadə etmişdir. 1225-ci il hadisələrindən bəhs edən Mirxond Əlincəqalanın adını Əlincək kimi qeyd etmişdir.

Əlincək boyu ilk orta əsrlərdə, təqribən, III-V əsrlərdə Arazdan şimalda – Sünik torpaqlarında özünə yurd salmışdı. Onlar burada öz daxili müstəqilliyini saxlamaqla vilayətin hakim nəslinə tabe idilər.

Əslən Urbat türklərindən olan xristianlaşmış Stepan Orbeliani yazır: "Sünik 12 əyalətdən ibarətdir. Onlardan biri Erincakdır". Sonrakı tarixi mənbələrdə Əlincək tayfasının Arazın cənubuna köçdüyü və Təbrizlə Naxçıvan arasında yerləşdiyi məlum olur. Məhəmmədəli Tərbiyətin verdiyi məlumatdan görünür ki, Alancık Cənubi Azərbaycanın mahallarından biridir. Yerli əhalinin Alança dediyi Əlincə kəndi Təbrizin 40 kilometr şimal-qərbində yerləşir.

Bu məlumatdan aydın olur ki, Əlincək tayfası tarixən yurd saldığı bu ərazilərdən çox da uzağa getməyib. Cənubi Qafqazda, eləcə də Arazın hər iki sahilində yaşayarkən sıldırım qayaların başında tikdikləri alınmaz qalaya – Əlincəyə sığınıblar.

*Beləliklə aydın olur ki, "Əlincə" adı bu ərazilərdə yaşamış Ərincə//Əlincək tayfasının adı ilə bağlıdır. Təqribən iki min il bundan əvvəl həmin tayfa birliyi Əlincəqalanı inşa etmiş və özlərinin təhlükəsizliklərini orada təmin etmişlər.*

**İsmayıl HACIYEV**
***AMEA Naxçıvan Bölməsinin sədri, akademik***

Xalq təqvimi

## Ömrün azdır, qabağın yazdır

***Qış fəsli təsərrüfat işlərində mühüm rol oynamasa da, xalq etiqadlarında, adət və ənənələrində, inamlarda ona aid zəngin materiallara rast gəlirik. Qışın əsas atributlarından biri qardır. Qar ilin ruzi-bərəkəti, bolluğu deməkdir. Payız əkinlərinin qalın qar ilə örtülməsi onu şaxtadan qorumaq, yazda suyun bolluğu baxımından çox əhəmiyyətlidir. Bunu aşağıdakı folklor nümunəsində də görmək olar:***

*Böyük çillə, nar çillə,*
*Ağ gül üstə qar çillə,*
*Taxıllara yorğan ol,*
*Bağçalara bar, çillə.*

"Qar olmasa, bar olmaz", "Qar ili, var ili" kimi atalar sözlərində də qarın faydası əks olunmuşdur.

Xalqımız qış fəslini xalq təqviminə uyğun olaraq çillə adı ilə üç yerə bölmüşdür. Böyük çillə 40 gün (21 dekabr-30 yanvar), kiçik çillə 20 gün (31 yanvar-19 fevral), ala çillə və ya ala çolpav (boz ay da deyilir) isə bir ay (20 fevral-20 mart) olur.

Qış girən günü, yəni dekabr ayının 20-si gecəsi "Çillə bayramı", "Çillə gecəsi" adlı mərasim qeyd edilir. Çillə gecəsi ilin 365 gecəsinin ən uzunu və qışın başlanğıc gecəsidir. Əvvələ bunu deyək ki, fəslin bu cür bölgüsü və onların çillə adlandırılması əski təsəvvürlərlə bağlıdır. Çillə xalq arasında ağırlıq anlamında başa düşülür. Çillə dərd, kəramət, xəstəlik mənasında qəbul edildiyindən onun girməsi dərdin, çətinliyin gəldiyinə işarədir. Mənbələrdə yazılır ki, adamlar bir müsibət, bəla ilə üzləşdikdə ondan xilas olmaq, yaxa qurtarmaq üçün xüsusi ayin icra edərdilər ki, elə bu da "çillə kəsmək" adlanırdı.

Çillə bayramını xalqımız xüsusi qeyd edər, bu bayrama hələ bir neçə gün əvvəldən hazırlıq görərdi. Bayram günü, demək olar ki, bütün evlərdə çillə qarpızı kəsilərdi. Hər kəs çalışardı ki, həmin gün evində çillə qarpızı olsun. Qarpız çillə gecəsinin ən gözəl payı hesab edilirdi. Toplanmış çöl materiallarına əsaslanaraq demək olar ki, Naxçıvanın Arazboyu kəndlərinin əksəriyyətində çox da böyük olmayan, qalın qabıqlı xüsusi qarpız növü əkilmişdir ki, belə qarpızlar uzun müddət, hətta Novruza qədər saxlamaq olardı. Çilləyə saxlanılması nəzərə alınan qarpızın tam yetişməmiş və saplaqlı olmasına fikir verilirdi. Çünki belə olanda qarpız daha yaxşı qalırdı. Çillə qarpızı xarab olmasın deyə, onu ot və ya samanın içərisində saxlayırdılar.

Çillə qarpızına bolluq, bərəkət rəmzi kimi baxılırdı. Etnoqrafik materiallara görə, çillə gecəsində qarpız kəsmək qışı xoş qarşılamaqla bərabər, ondan qorxmamağa işarədir. Digər məlumata görə, çillədə qarpız kəsəndə deyərdilər ki, "ay qarpız, səni mən necə kəsirəmsə, çilləni də belə tez kəsim". Yəni qışa, şaxtaya yenilməyim, onu dərdsiz, bəlasız başa vurum. Bəzi rayonlardan (Ordubad, Şərur) yaşlı insanların verdiyi məlumata görə, çillədə qarpız kəsilirdi ki, günümüz qırmızı, yəni günəşli olsun. Çillə qarpızı kəsilən vaxt xalq arasında niyyətetmə adəti mövcud idi. Bundan başqa, qarpız kəsib yeddi evə pay göndərilirdi. Çillə bayramı günü nişanlı qızların, təzə gəlinlərin bayram görüşünə (Çillə bayramına) gedərdilər. Bayramlıqlar içərisində çillə qarpızı xüsusi yer tutardı.

*Bu qarpız, çilə qarpız,*
*Düşübdür dilə qarpız,*
*Yığılıb xonçalara,*
*Gedir yargilə qarpız.*

Şərur rayonunun bəzi kəndlərindən toplanmış materiallara görə, nişanlı qızlara qarpız aparanda onun yanına bıçaq da qoyardılar. Qarpız həmin bıçaqla kəsilir və sonra onun yarısı yenidən oğlan evinə qaytarılırdı.

El arasında bu üç çillə üç bacı, daha çox böyük və kiçik çillələrlə bağlı olaraq böyük və kiçik bacı adlandırılır. El-oba arasında bu iki bacı ilə bağlı bir rəvayət də bilinməkdədir.

***Rəvayət:*** Böyük çillə ömrünü başa vurub geri qayıdanda kiçik çillə ilə qarşılaşır. Kiçik çillə böyük çillədən soruşur: nə etdin? Böyük çillə cavab verir ki, tayaları yarıladım, qovurma küpəsinin başını yendirdim, qalaqları sökdürdüm. Kiçik çillə deyir: "Mən gedib unluqları, ot tayalarını yox edəcəyəm, qalaqları yandırıb göyə sovuracağam, gəlinlərin əlini xəmir teknəsində donduracağam". Böyük çillə cavab verir: "Heç nə edə bilməyəcəksən, çünki ömrün azdır, qabağın yazdır".

Xalq arasında iki çillənin bir-birini əvəz etməsi "təhvil-təslim dövrü" adlanır. Ordubad və Culfa bölgəsində əhali qışın ən qorxulu dövrünü "cahar-cahar" adlanan dövr hesab edir ki, bu da dörd gün böyük çillədən, dörd gün isə kiçik çillədən götürülür. Xalq meteorologiyasına görə, böyük çillənin son dörd günü və kiçik çillənin ilk dörd günü qışın ən sərt günüdür. Culfa bölgəsindən topladığımız etnoqrafik çöl materiallarına görə, bu bölgədə böyük çillə qurtarıb, yerini kiçik çilləyə verdiyi dövrdə ("cahar-cahar" adlanan dövr nəzərdə tutulur) "çillə kəsdi" oyunu və ya şənliyi keçirilirdi. Oyun zamanı qardan heyvan fiqurları düzəldib, onun ətrafına yığışar, şənlik edərdilər. Məqsəd qışdan qorxmamaq, qışa sinə gərmək idi.

Kiçik çillə daha çox şaxtalı keçdiyinə görə bu müddətə "qışın oğlan çağı" da deyilir. Kiçik çillənin şaxtalı, boranlı olmasını "kiçik çillənin soyuğu, təndirə qatar toyuğu" və ya "kiçik qardaş xovlu olar" kimi el deyimlərində də görürük.

Deyilənə görə, kiçik çillə daxil olduğu kimi çıxanda da havada bir dəyişiklik yaradır. Lakin ömrünü başa vurarkən kiçik çillə haqqında deyərlər ki, "ömrünə bir şey qalmayıb, heç nə edə bilməz" və ya "ömrün azdır, qabağın yazdır".

Kiçik çillənin adı ilə bağlı xalqımız şeir də qoşubdur:

*Kiçik çillə*
*Boyu bir belə,*
*Hikkəsi iri belə...*
*Gəlişi oldu hayınan,*
*Gedişi oldu vayınan.*

Araşdırmalardan məlum olmuşdur ki, Ordubad rayonunun bəzi kəndlərində böyük çillə ilə kiçik çillənin arasındakı "təhvil-təslim dövrü"ndə böyük çillə və ya ulu çillə qurtarıb yerini kiçik çilləyə verən günü "Çoban bayramı" və ya "Saya gəzmə" adlı mərasim təşkil edərdilər. Mənbələrin verdiyi məlumata görə, bayramı keçirməkdə əsas məqsəd yer ruhlarını razı salıb, döl bərəkətini artırmaq və heyvanları sağlam vəziyyətdə yaza çıxarmaq idi.

Onu da qeyd edək ki, kiçik çillənin onuncu günü, yəni fevral ayının 9-da Naxçıvanda xalq arasında "Xıdır Nəbi" adlanan mərasim qeyd olunur ki, bu haqda da gələn yazımızda bəhs edəcəyik.

**Asəf ORUCOV**
***tarix üzrə fəlsəfə doktoru***

***Dünən Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə "Rast dəstgahı" muğam məclisi olub. Muğam məclisindən əvvəl Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova çıxış edərək bildirib ki, muğam sənəti Azərbaycan xalqının bədii yaradıcılığının və musiqi mədəniyyətinin zəngin sərvəti olmaqla nadir sənət nümunəsidir. Muğam xalqımızın dünya mədəni irsinə bəxş etdiyi ən böyük xəzinədir.***

## "Rast dəstgahı" muğam məclisi təşkil olunub



Qeyd olunub ki, Azərbaycan muğamının ən mükəmməl elmi əsasını XX əsrdə dahi bəstəkar Üzeyir Hacıbəyov qoyub. Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Soltan Hacıbəyov, Cahangir Cahangirov, Süleyman Ələsgərov, Vaqif Mustafazadə, Vasif Adıgözəlov və başqaları muğam sənətinə əsaslanaraq qiymətli sənət nümunələri yaradıblar.

Ötən əsrin 70-ci illərində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə milli dəyərlərimizin yaşadılması istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində muğam sənətimiz də yeni inkişaf mərhələsinə qədəm qoyub, muğam ifaçıları və bu sənəti yaşadanlar qayğı ilə əhatə olunub. 1971-ci ildə YUNESKO-nun 50 albomdan ibarət olan "Dünya ənənəvi musiqisinin antologiyası" seriyasına "Azərbaycan musiqisi plastinkası" da daxil edilib, 1975-ci ildə Azərbaycan muğamları "Musiqi mənbələri" seriyasında buraxılıb. Müstəqillik illərində də Azərbaycan musiqisinin və muğamının inkişafında ulu öndər Heydər Əliyevin müstəsna xidmətləri olub. 2002-ci ilin noyabr ayında YUNESKO tərəfindən muğam sənəti "Bəşəriyyətin qeyri-maddi mədəni irsinin reprezentativ siyahısı"na daxil edilib.

Vurğulanıb ki, muğam sənətinin qorunub saxlanması və tanıdılması istiqamətində Heydər Əliyev Fondunun həyata keçirdiyi silsilə tədbirlər müstəsna rol oynayır. Son illər ölkəmizdə bir sıra irimiqyaslı layihələr həyata keçirilib, muğam müsabiqələri təşkil olunub, "Qarabağ xanəndələri" albomu buraxılıb, "Muğam" jurnalı, "Muğam ensiklopediyası" nəşr edilib. Azərbaycanda 2009-cu ildən başlayaraq iki ildən bir Beynəlxalq Muğam Festivalı və bu festival çərçivəsində beynəlxalq "Muğam aləmi" simpoziumu keçirilir.

Qeyd olunub ki, muxtar respublikamızda da muğam sənətinin yaşadılması istiqamətində ardıcıl tədbirlər görülür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 2009-cu il 7 fevral tarixli Sərəncamına əsasən keçirilən xalq yaradıcılığı günlərində zəngin folklor nümunələri ilə yanaşı, muğamlarımız da gənc nəslə aşılanır. 2012-ci ildə keçirilən "Milli dəyərlərimiz – milli sərvətimiz" folklor və muğam müsabiqəsi ictimaiyyət tərəfindən maraqla qarşılanıb.

Sonra tədbirin bədii hissəsi başlayıb. Qeyd edək ki, orta əsr musiqi elmində "Rast" ən birinci və bütün digər muğamların əsası sayılır. "Rast" muğamı insanda mərdlik, müdriklik duyğusu yaradır, dinləyicini düşündürür. Musiqişünaslar "Rast"ı "muğamların anası" adlandırırlar. "Rast"ın dəstgahlarının şöbə və guşələri muğam biliciləri tərəfindən ustalıqla ifa olunur.

"Rast dəstgahı" muğam məclisində xanəndə və müğənnilərdən Azərbaycan Respublikasının Əməkdar artistləri Qurban Qasımov, Vilayət İsmayılov, Naxçıvan Muxtar Respublikasının Əməkdar artistləri Hünər Əliyev, Xatirə Səfərova, müğənnilərdən Qəribə Həsənova, Nərmin Hüseynova "Rast"ın "Üşşaq", "Hüseyni", "Vilayəti", "Əmiri", "Əraq" və başqa şöbə və guşələrindən ibarət dəstgah səsləndiriblər.

Muğam ifaçılarını Azərbaycan Respublikasının Əməkdar artisti Elman Əliyev (tarda), Naxçıvan Muxtar Respublikasının Əməkdar artistləri Aqib Seyidov (kamançada), Qasım Bağırov (balabanda), Məmmədəli Babayev (nağarada), Sevinc Babayeva (kamançada), Sərxan Abdullayev (udda) müşayiət ediblər.

## Tanınmış dramaturqun ikinci əsəri Naxçıvan səhnəsində

***C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı yaxın günlərdə tanınmış dramaturq Əli Əmirlinin ikihissəli "Varlı qadın" komediyasını teatrsevərlərə təqdim edəcəkdir.***

Qeyd edək ki, bu, Əli Əmirlinin Naxçıvan teatrında tamaşaya qoyulan ikinci səhnə əsəridir. Yeni tamaşanın quruluşçu rejissoru Tofiq Seyidov, quruluşçu rəssamı Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Səyyad Bayramov, musiqi tərtibatçısı Azərbaycan Respublikasının Əməkdar artisti Məhbariz Əsgərovdur. Qeyd edək ki, "Varlı qadın" komediyası ölkəmizin və xarici dövlətlərin bir neçə teatrında oynanılmışdır.

"Varlı qadın" komediyasında hadisələr keçən əsrin doxsanıncı illərində Azərbaycanda cərəyan edir. Varlanmaq həvəsi ilə yaşayan ailənin komik situasiyalara düşməsi tamaşaçını düşündürməli, nəticə çıxarmaq səviyyəsindədir.

Tamaşada Azərbaycan Respublikasının Əməkdar artisti Bəhruz Haqverdiyev (Sarı), Naxçıvan Muxtar Respublikasının Əməkdar artistləri Günay Qurbanova (Həvva Zərlinskaya), Vüsal Rzayev (Dilənçi) rol almışlar.

Gənc aktyor və aktrisalardan Nurbəniz Niftəliyeva, Elnur Rzayev, Anar Eyvazov, Səyyad Məmmədov, Fidan Qasımova, Bünyat Səttarlı da tamaşada maraqlı personaj və obrazları canlandıracaqlar.

## Məktəblilər üçün cizgi filmləri göstərilir

Naxçıvan Dövlət Film Fondu qış tətili günlərində məktəblilərin asudə vaxtlarının səmərəli və mənalı keçməsi məqsədilə toplularda cizgi filmlərinin nümayişinə başlayıb. Keçirilən seanslara ibtidai sinif şagirdləri, habelə sağlamlıq imkanları məhdud, valideyn himayəsindən məhrum və aztəminatlı, şəhid ailələrinin uşaqları da cəlb olunur.

Dünən fondun əməkdaşları Kəngərli və Şərur rayonlarında uşaqlar üçün cizgi filmləri göstərib. Yanvarın 29-da Naxçıvan və Şahbuz şəhərlərində, yanvarın 30-da Babək və Ordubad rayonlarında cizgi filmləri nümayiş etdiriləcək. Balaca tamaşaçılar "Humayın yuxusu", "Ayna", "Kirpi balası və alma", "Tıq-tıq xanım", "Toplan və kölgəsi", "Toral və Zəri", "Ümid" və



başqa Azərbaycan cizgi filmlərinə baxa biləcəklər.

**Əli RZAYEV**

## Məqsəd idmançıların sağlamlığı və düzgün qidalanmasıdır

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə idmançılar üçün keçirilən seminarlar davam etdirilir. Bu səpkidə olan seminarlardan biri də dünən Naxçıvan Muxtar Respublika Stadionunda baş tutub. "Araz-Naxçıvan" Peşəkar Futbol Klubunun futbolçuları üçün təşkil edilən seminarda diyetoloq İsmayıl Vəliyev iştirak edib.

Seminarın açılışında çıxış edən Gənclər və İdman Nazirliyi Aparatının Kütləvi bədən tərbiyəsi və idman şöbəsinin müdiri Taleh İbrahimov bildirib ki, butipli yığıncaqların təşkilində məqsəd idmançıların sağlamlığı və düzgün qidalanmasıdır. Sonra "Araz-Naxçıvan" futbol komandasının baş məşqçisi Sakit Rzayev çıxış edib və bu seminarın əhəmiyyətindən danışıb.

Diyetoloq İsmayıl Vəliyev çıxışında bildirib ki, əzələ kütləsinin artımı üçün məşq ilə yanaşı, həm də düzgün pəhriz rejiminə əməl olunmalıdır. Əsas qayda – əlavələr qidanı əvəz etməməlidir. Orqanizmə zülal, karbohidrat, yağ çox daxil olan zaman oksidləşmə vəziyyətində enerji hasil olur. Enerjini fiziki işlərə sərf etmədikdə isə bu, piylənmə ilə nəticələnir. İdmançıda əzələ kütləsinin artımının birinci qaydası güc məşqləri üçün, ikinci qaydası isə əzələnin artımı üçün enerjinin olmasıdır.

Diyetoloq onu da qeyd edib ki, futbolçular ilk olaraq özlərini zərərli qidalardan qorumalı, mütəmadi olaraq onlara tövsiyə edilən yeməklərlə qidalanmalıdırlar.

Qeyd edək ki, növbəti seminar Karate-do, Boks və Güləş federasiyalarının yetirmələri üçün nəzərdə tutulub.

**Ceyhun MƏMMƏDOV**

## Prokurorluq orqanları hüquqi maarifləndirmə tədbirlərini davam etdirir

***Babək Rayon Prokurorluğunun təşkilatçılığı ilə Şıxmahmud Kənd Mərkəzində torpaq qanunvericiliyinin pozulmasına görə nəzərdə tutulan cinayət və inzibati məsuliyyət növləri haqqında maarifləndirici tədbir keçirilib.***



Tədbirdə Babək rayon prokurorunun müavini, kiçik ədliyyə müşaviri Kənan Seyidov "Torpaq qanunvericiliyinin pozulmasına görə cinayət məsuliyyəti" mövzusunda çıxış edərək bildirib ki, torpaq münasibətlərinin tənzimlənməsi, eləcə də torpaq üzərində mülkiyyət hüququnun və onun ayrı-ayrı elementlərinin yaranması qaydası Konstitusiya və digər qanunvericiliklər ilə tənzimlənir. Torpaq sahəsi üzərində mülkiyyət hüququ mülkiyyətçinin təkbaşına və ya başqaları ilə birlikdə torpaq sahəsinə sahib olmaq, torpaq sahəsindən istifadə etmək və onun barəsində sərəncam vermək hüquqlarından ibarətdir.

Qeyd olunub ki, 30 sentyabr 2015-ci il tarixli Azərbaycan Respublikası Qanunu ilə Azərbaycan Respublikası Cinayət Məcəlləsinə edilmiş dəyişikliklərin torpaq sahələrinin qorunmasında xüsusi yeri vardır. Belə ki, qeyd edilən qanun qüvvəyə minənədək Cinayət Məcəlləsinin 188-ci maddəsi "Torpaq üzərində mülkiyyət hüququnu pozma" adlanırdı və maddəyə əsasən, torpaq üzərində qanunla müəyyən edilmiş mülkiyyət hüququnu pozma, yəni torpaq sahəsini özbaşına tutma, dəyişdirmə və ya becərmə cinayət məsuliyyətinə səbəb olurdu. Cinayət Məcəlləsinə dəyişiklik edilərək 188-ci maddə yeni redaksiyada verilib və həmin maddə "Torpaq üzərində mülkiyyət, istifadə və ya icarə hüququnu pozma" adlandırılıb.

Sonra torpaq qanunvericiliyinin pozulmasına görə Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş məsuliyyət haqqında məlumat verilib.

Babək rayon prokurorunun köməkçisi Abdulla Quliyev "Torpaq qanunvericiliyinə görə inzibati məsuliyyət" mövzusunda danışaraq deyib ki, Azərbaycan Respublikasında torpaq sahəsi üzərində dövlət, bələdiyyə və xüsusi mülkiyyət növləri mövcuddur. Bütün mülkiyyət növləri bərabərhüquqludur və dövlət tərəfindən qorunur.

Qeyd olunub ki, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin "Ətraf mühitin mühafizəsi, təbiətdən istifadə və ekoloji təhlükəsizlik qaydaları əleyhinə olan inzibati xətalar" adlanan 9-cu fəslində torpaq qanunvericiliyinin pozulmasına görə inzibati məsuliyyət nəzərdə tutan normalar var. 30 sentyabr 2015-ci il tarixli Azərbaycan Respublikasının Qanunu ilə İnzibati Xətalar Məcəlləsinə bir sıra dəyişikliklər edilib. Belə ki, məcəllənin 88-1-ci maddəsi yeni redaksiyada verilib. Əvvəlcə maddə "Müvəqqəti tutulan torpaqların vaxtında qaytarılmaması və ya onların müvafiq istifadə üçün yararlı hala salınmaması, icarəyə verilmiş torpaqların məqsədli təyinatını dəyişdirmədən başqa məqsədlər üçün istifadə edilməsi" adlanırdı. Dəyişiklikdən sonra adıçəkilən maddə "Torpaq sahəsinin məqsədli təyinatına uyğun olmayan başqa məqsədlər üçün istifadə edilməsi" adlanır.

Sonra torpaqlardan məqsədli təyinatına uyğun olmayan hallara görə qanunvericilikdə nəzərdə tutulmuş inzibati məsuliyyət haqqında məlumat verilib.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

**Kərəm HƏSƏNOV**

## Təcili Tibb Mərkəzində təlim-treninq

***Yanvarın 28-də Naxçıvan Şəhər Təcili Tibb Mərkəzində "Hipertonik krizlər zamanı ilkin tibbi yardımın təşkili" mövzusunda təlim-treninq keçirilib.***

Tədbiri giriş sözü ilə açan Naxçıvan Şəhər Təcili Tibb Mərkəzinin baş həkimi Ədalət Salmanov bildirib ki, belə seminarların keçirilməsində əsas məqsəd həkimlərimizin bilik və peşə bacarıqlarının yüksəldilməsindən, müasir tibbi avadanlıqlardan daha səmərəli istifadə etməklə əhaliyə göstərilən ilkin tibbi xidmətin keyfiyyətini yüksəltməkdən ibarətdir. 2008-ci ildən Naxçıvan Şəhər Təcili Tibb Mərkəzi kimi fəaliyyət göstərən bu səhiyyə müəssisəsi üçün lazımi iş şəraiti yaradılmışdır. 5 həkim briqadası qrafikə uyğun olaraq 24 saat hadisə yerində fasiləsiz və operativ olaraq təcili tibbi yardım xidməti göstərir. Təcili və təxirəsalınmaz müdaxilələr üçün briqadalar tibbi cihaz və avadanlıqla təchiz edilmişlər.

Naxçıvan Muxtar Respublikası Kardioloji Mərkəzin həkimi Fərrux Bayramov ilkin tibbi yardım göstərən həkimlərlə qarşılıqlı əlaqələrin müalicələrin vaxtında və səmərəli şəkildə həyata keçirilməsinə şərait yaratdığından bəhs edib.

Sonra Naxçıvan Şəhər Təcili Tibb Mərkəzinin çağırışçı həkimi Əkrəm Məmmədli "Hipertonik krizlər zamanı ilkin tibbi yardımın təşkili" mövzusunda təlim-treninq aparıb. Çağırışçı həkimlərin, kardioloqların, həkim-rezidentlərin iştirak etdikləri tədbirdə ilkin tibbi xidmət zamanı ən çox rast gələnən hipertonik krizlərin başvermə səbəbləri, əlamətləri, hipertonik kriz zamanı ilkin tibbi yardım barədə müzakirələr aparılıb, dinləyiciləri maraqlandıran suallar cavablandırılıb.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Tibbi yardımın təşkili şöbəsinin müdiri Süleyman Cəfərov tədbirə yekun vuraraq səhiyyə sisteminin yenidən qurulması, ixtisaslı kadrların hazırlanması, ilkin səhiyyə xidmətinin yeni tələblərə uyğunlaşdırılması, sağlamlığa mənfi təsir edən faktorların aradan qaldırılması istiqamətində görülən işlərdən danışıb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Nəcəfov Sultan Əşrəf oğlunun adına olan JN-349A seriya nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

**Baş redaktor:**
**TURAL SƏFƏROV**

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 77